# Müstəqilliyimizin və təhlükəsizliyimizin qarantı



***Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Digər tərəfdən, Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsi ilə bağlı atılan addımlar orduda aparılan geniş quruculuq işlərinin nəticəsidir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənimizi şərəflə qoruyur.***

Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Sərəncamı ilə təsis olunan 26 İyun-Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü artıq torpaqlarımızın düşmən tapdağından azad edilməsi şəraitində keçirilir. Bu ɪ Azərbaycan xalqı bu əlamətdar ˌünü qeyd edərkən sözün əsl mənasında xoşbəxt və qürurludur.

Vətənimizin qorunmasının, işğal altında olan torpaqlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən ulu öndər Heydər Əliyev tez-tez səngərlərdə olur, əsgər və zabitlərlə şəxsən görüşür, ölkənin müdafiə qüdrətini və hərbi potensialını artırmaq üçün ciddi addımlar atırdı. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ulu öndər Heydər Əliyev Bakıda Azərbaycanın milli hərb sənəti tarixinə adı qızıl hərflərlə yazılmış general Cəmşid Naxçıvanski adına hərbi lisey yaratmaqla ölkəmizdə hərbi sahənin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. 1993-cü ildə ölkənin ağır dönəmində xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələndə Heydər Əliyevin ilk işi qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoymaq və Ordunun idarəçiliyini vahid



mərkəzdə birləşdirmək oldu. Məhz ulu öndərin yorulmaz fəaliyyəti, dövlətçilik təfəkkürü, siyasi uzaqgörənliyi, təşkilatçılıq qabiliyyəti sayəsində müasir Azərbaycan Ordusunun əsası qoyuldu. Beləliklə, sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu da müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən birinə çevrildi.

Dövlətin müstəqilliyi onun ordusunun gücündən bilavasitə asılıdır. Ordunun gücü dövlətin iqtisadiyyatıyla, dövlətin gücü ordunun qüdrəti ilə müəyyənləşdirilir. Ordu iqtisadiyyatı dinamik inkişafda olan dövlət üçün prioritetdirsə, güclü olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fəxrlə bildirir: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var". Ulu öndər Heydər Əliyevdən sonra bu missiyanı onun siyasi varisi İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının rəhbərliyi ilə hərbi arsenal ən müasir silahlarla təchiz olundu, hərbi sahədə əməkdaşlıq əlaqələri genişləndirildi. Ölkə başçımızın bu sahəyə xüsusi həssaslıqla yanaşması sayəsində Azərbaycan qüdrətli orduya sahib oldu.

Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordudan biri və Cənubi Qafqazın ən güclü Ordusudur. İkinci Qarabağ müharibəsində bu fakt özünü bir daha təsdiqləmiş və Ordumuzun gücü dosta iftixar, düşmənə göz dağı nümayiş etdirmişdir.

Hərb tariximizin şanlı səhifəsi sayılan 104 illiyini təntənə ilə qeyd etdiyimiz Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritetliyi xalqımızın ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımların nəticəsidir.

Ali Baş Komandan cənab İlham Əliyevin göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir ki, ölkəmizin müdafiə qabiliyyəti gündən-günə artaraq, xalq, dövlət, ordu birliyi monolit birliyə çevrilib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Ermənistan silahlı birləşmələrinin təxribatlarına qarşı başlayan əks-hücum əməliyyatlarında - 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımızı azad etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. İşğaldan azad olunmuş tarixi torpaqlarımızda bu gün üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Vətən müharibəsində Azərbaycan şanlı qələbə qazanaraq həm tarixi ədaləti bərpa etdi. Bu qələbə sevincini xalqımıza yaşadan isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını uğurla yerinə yetirən Silahlı Qüvvələrimiz oldu. Vətən müharibəsində Ordumuz öz tarixi missiyasını yerinə yetirərək işğalçı Ermənistanı məğlubiyyətə uğratdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, Vətən müharibəsində Ordumuz hər gün irəlilədi, hər gün yeni zəfərlərə imza atdı. Çox haqlı olaraq Silahlı Qüvvələrimizin şanlı Aprel döyüşlərində, Günnüt əməliyyatında və nəhayət, 44 günlük Vətən müharibəsində düşməni məğlubiyyətə uğratması Azərbaycanda ardıcıllıqla həyata keçirilən ordu quruculuğu siyasətinin məntiqi nəticəsi kimi dəyərləndirilir.

Prezident İlham Əliyev son 19 ilə yaxın müddət ərzində ordu quruculuğuna müstəsna diqqət göstərib. Bu dövrdə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq güclü, qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadir olan ordunun yaradılması ilə bağlı davamlı şəkildə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyıb. Dövlət büdcəsindən Silahlı Qüvvələrin möhkəmləndirilməsinə lazımi qədər vəsait yönəldilib. Bütövlükdə, davamlı dövlət qayğısı sayəsində Azərbaycan Ordusunun maddi-texniki təchizatını yüksək səviyyəyə çatdırmaq mümkün olub.

Vətən müharibəsi göstərdi ki, Azərbaycan ötən dövrdə ordu quruculuğunda müasir yanaşmalara və innovativ texnikalardan istifadə olunmasına üstünlük verib. Uzun müddət havadaqalma qabiliyyətinə malik və müasir peyk-naviqasiya sistemi ilə təchiz olunan "HERON", ortaölçülü çoxməqsədli "HERMES 900", "HERMES 450", "HAROP", "Bayraktar" pilotsuz uçuş aparatları Vətən müharibəsində düşmənin ölüm kabusuna çevrilmişdi.

Respublikamızda aparılan müasir ordu quruculuğu siyasətinin mühüm bir istiqamətini isə şəxsi heyətin peşəkarlığının artırılması, kadrların yetişdirilməsi, həmçinin əsgər və zabitlərin sosial təminatlarının gücləndirilməsi təşkil edib. Vətən qarşısında borcunu yüksək səviyyədə yerinə yetirən çoxlu sayda hərbçi mənzillərlə təmin olunub. Paralel şəkildə orduda xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar. Zəfər salnaməsinə qızıl hərflərlə yazılan Vətən müharibəsi ordumuzun qalibiyyət tarixinin ən fəxarətli, ən şərəfli anıdır. 30 ildən sonra doğma torpaqlarımızı düşmən tapdağından azad edən yenilməz Azərbaycan Ordusu yaranma gününü qürurla, şərəflə, fəxarətlə qeyd edir. Dünyanın ən güclü orduları sıralarında yer alan Azərbaycan Silahlı Qüvvələri Ermənistanın 30 illik işğalına son qoyaraq onların mifik "məğlubedilməz ordu"sunu tarixin arxivinə göndərdi. Bu gün güclü orduya sahib olan ölkələr məhz Azərbaycan hərb siyasətinin dərinliklərini öyrənir, nümunə, örnək götürür, Vətən müharibəsindəki təcrübəmizə əsaslanırlar.

Azərbaycan ordusunun 44 günlük müharibədə nümayiş etdirdiyi rəşadətini bütün dünya ictimaiyyəti gördü. Vətən, millət, ordu vəhdəti qələbəmizi sürətləndirən amillərdən ən başlıcası idi. Bu zəfərdə ordumuzun yüksək peşəkarlığı, müasir silahlarla təmin edilməsi ilə yanaşı ruh yüksəkliyi də öz sözünü deyirdi.

Qalib xalq olaraq sözümüzü döyüş meydanında dedik, düşməni məhv etdik, bayrağımızı Şuşaya sancdıq və 2021-ci ildə ilk dəfə olaraq Azərbaycan Ordusu ad gününü qalib ordu kimi qeyd etdi. Xalqın sosial sifarişini ordu çox böyük şərəf, ləyaqət və cəsarətlə ən qısa müddətdə minimal itki ilə yerinə yetirdi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, müharibədə Azərbaycanın qələbəsini şərtləndirən bir sıra faktorlar var idi. Bunların içərisində ən önəmlisi, ən vacibi ordu faktoru idi. Vətən müharibəsində məhz Azərbaycan əsgəri, zabiti qalib oldu. Hər bir Ali Baş Komandanın, generalın, əsgərin ürəyində, qəlbində qələbə ruhu olmasa heç bir qələbədən söhbət gedə bilməz. Bu dönəmdə Azərbaycan xalqı cənab Prezidentin paylaşdığı qələbə "tvit"lərini səbirsizliklə gözləyirdi. Eyni zamanda ölkə başçımızın hər bir çıxışında ancaq qələbə ruhu, qələbə əzmi, qələbə qətiyyəti vardı.

Ali Baş Komandanın rəhbərliyi altında müasir hərb sənəti tarixinə qızıl hərflərlə yazılan yeni əsrin müharibəsini aparmaq gücündə olan bir orduya sahibdir. Bir sözlə qalib xalq, qalib Ordu və qalib lider. Ermənistan üzərində zəfər salnaməmizin yazılmasında müstəsna rol oynayan bu üçlüyün vəhdəti Azərbaycanda milli birliyin, vətənpərvərliyin, həmrəyliyin ideal formulunu, düsturunu təşkil edir. Silahlı Qüvvələr deyiləndə artıq hər kəsin gözü önündə canlanan bir mənzərə var: Vətən müharibəsi, qalib ordu, qələbə hissini yaşayan xalq. Bizlərə qələbə sevincini yaşadan Ordumuza dərin minnətdarlıq hissi ilə yaşasın Şanlı Azərbaycan Ordusu! Bayramınız mübarək!

**M.MİRZƏ,**
**"Respublika".**